# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№384** **Bakı şəhəri, 5 oktyabr 2022-ci il**

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 524; 2012, № 2, maddə 187; 2016, № 2 (II kitab), maddə 372, № 6, maddə 1213; 2018, № 3, maddə 611, № 4, maddə 792, № 5, maddə 1116, № 10, maddə 2143; 2019, № 8, maddə 1479, № 12, maddə 2050; 2020, № 12 (V kitab), maddə 1586; 2022, № 4, maddələr 379, 390; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 24 aprel tarixli 91 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyası” sözləri “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası” sözləri ilə əvəz edilsin.

**2.** 2-ci hissədə “Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika Komissiyasının” sözləri “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası” sözləri ilə əvəz edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. adı aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyasının tərkibi”;

3.2. Komissiyanın tərkibi yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 7 oktyabr.- S.3.